ISSN 2663 - 4619 / Print

DOI: 10.36719/AEM/2007-2019/47/60-61
**Fəxriyyə Telman qızı Xudiyeva**
Abşeron rayonu, Xırdalan, 2 № -li tam orta məktəb

# NƏİMİ, NƏSİMİ VƏ BÖYÜK TARİXİ ABİDƏ -XANƏGAH

***Açar sözlər**. Nəimi, Nəsimi, Xanəgah, hurufizm*
***Key words:** Naimi, Nasimi, Khaneghah, Hurufi*
***Ключевые слова:** Наими, Насими, Ханегах, Хуруфизм*

İmadəddin Nəsimi (1369-1417) Azərbaycanın böyük ədəbi siması, dahi şairi, mütəfəkkiri, ana dilli poeziyamızın və Hürufizmin görkəmli nümayəndəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 15 noyabr, 2018-ci ildə "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncam imzalamışdır ki, bu sərəncamda deyilir: "Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəsxiyyətin azadlığını tərənnüm etmişdir. Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində öz geniş fəaliyyət sahəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Məhz ulu öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümyəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirlər siyahısına daxil edilmiş və 1973 -cü ildə beynəlxalq miqyasda qeyd olunmuşdur" (1). Azərbaycan Respublikası Prezidentinin 11 yanvar, 2019-cu il Sərəncamı ilə də 2019-cu il "Nəsimi ili" elan olunmuşdur. Həmin sərəncamda deyilir: "Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir" (2).

Nəsimi Hürufiliyin banisi Fəzlullah Nəiminin fəlsəfi görüşlərini mənimsəmiş, onu davam etdirmiş və Nəimininin təxəllüsü ilə həmahəng səslənən "Nəsimi" təxəllüsünü qəbul etmişdir.

**Fəzlullah Nəimi** (1339-1393) Nəimi ilk təhsilini doğulduğu şəhərdə-Astarabadda almışdır. Bəzi mənbələrə görə Astarabad və ya Astabad Naxçıvanda Araz çayı sahilində şəhər olmuşdur. Sonralar Araz çayı üzərində su elektrik stansiyası tikilərkən qədim şəhər nümunələri sulara qərq olmuşdur (3). Nəimi sonra Təbrizdə təhsilini davam etdirmişdir. Gənclik illərində çətin dolanışığı ilə əlaqədar Təbrizdə papaqçılıqla məşğul olmuşdur. Nəimi papaqçılıq edən zaman görkəmli sufi şeyxi Şiblinin müridi olmuşdur. Onun sufi ideyalarına yiyələnmiş və davamçısı olmuşdur, Hürufilik təriqəti ilə məşğul olmuşdur. 1386-cı ildə Təbrizdə hürufilik təriqətini elan etməklə onun əsasını qoymuş və Hürufilik məktəbini yaratmışdır. Nəimi Azərbaycanı hürufilik təriqətinin oyanış mərkəzi adlandırmışdır. Nəiminin hürufilik təriqəti Nəsimi və başqa müridləri tərəfindən İrana, İraqa, Türkiyəyə, Suriyaya və başqa müsəlman ölkələrinə də yayılmışdır.

Hürufilik təriqətinin əsas ideyası odur ki, "Allah özünün bənzəri kimi, yaratdığı insanın simasında özünü və adını təcəlla edir. Nəimi hürufilik təriqətini təsadüfi yaratmamışdır. Bu gün elmə məlumdur ki, müqəddəs ilahi hərflərin mövcudluğu dini kitablarda, "Brahma"da, "Tövrat"da və "Qurani-Kərim"də dəfələrlə qeyd edilmişdir. Nəimi isə "Qurani-Kərim"də olan Hürufi işarələrdən istifadə etməklə, onu genişləndirərək, təriqət səviyyəsinə qaldırmışdır. Nəimi "Cavidannamə", "Cavidani-Kəbir" (böyük əbədilik), "Cavidani-Səğir" əsərlərində təsəvvüf baxışlarını yaymışıdr. O, təsəvvüf və hikmət elmlərində yüksək rütbəyə çatmış, hürufiliyin sirrləri haqqında tədqiqat aparmışdır.

Əmir Teymur Nəimini dinsizlikdə günahlandıraraq 1393-cü ildə Əlincə qalasında edam etdirmişdir. Nəimi orada da dəfn edilmişdir. Nəiminin dəfn olunduğu yer Xanəgah adlanır. Xanəgahlar ümumiyyətlə "dərvişlərin məskəni", "Sufilərin yeri" mənasında işlədilir və müqəddəs yerlərin üstündə tikilirdi. Nəiminin qəbri hal-hazırda Naxçıvanda Culfa rayonunun Xanağa kəndində, Əlincə çayının sol sahilində Əlincə qalası ilə üzbəüz yamacda yerləşən köhnə qəbiristanlıqdadır. Qəbrin üstündə kərpicdən tikilmiş künbəz vardır və o, ziyarətgaha çevrilmişdir. Xanəgah türbəsi orta əsrlərə aid tarixi memarlıq abidəsidir. Orta əsr Xanəgah yaşayış yerinin mərkəzindədir. Türbə binasında qapı yerinin üstündən düşmüş kitabəli daş lövhə türbənin içərisində saxlanılır. Bu türbə Qaraqoyunlu Cahanşah Həqiqi dövründə (1435-1467) tikildiyi mənbələrdə göstərilir. Giriş baştağının memarlıq elementləri Mömünə xatun türbəsinin elementlərinə oxşayır. Türbə sərdabə planında düzbucaqlı formada olub, daş və kərpicdən tikilmişdir. Bərkidici maddə kimi əhəng qatılmış kəc məhlulundan istifadə edilmişdir.

Azərbaycanın orta əsrlər ictimai, dini-fəlsəfi, pedaqoji və ədəbi-mədəni gerçəkliyində sufizmin əhəmiyyətli qollarından biri Nəimin yaratdığı Hürufizmdir. Panteist dini-fəlsəfi düşüncəni əsas götürən bu

ISSN 2663 - 4619 / Print

cərəyan əsasən XIV-XV yüzilliklər Azərbaycan ədəbi-mədəni, ictimai-siyasi və pedaqoji mühiti ilə o qədər sıx və əsaslı şəkildə qaynayıb qovuşur ki, onu nəzərə almadan həmin dövr ədəbi, tarixi və pedaqoji fikri dərk etmək çətindir.

**Ədəbiyyat:**

1. "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" . Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15 noyabr, 2018-ci ildə sərəncamı/ Xalq, 16 noyabr, 2018 -ci il

2. Nəsimi ili. Azərbaycan Respublikası Prezidentinin 11 yanvar, 2019 cu il Sərəncamı/ Xalq, 12 yanvar, 2019

3. Hüseynzadə L.T. Astabad sulara qərq olmamış./ Ədəbiyyat və incəsənət,.11 fevral, 1967- ci il.

4. İmadəddin Nəsimi. Mən bu cahana sığmazam. Bakı: Gənclik, 1991.

**Naimi, Nasimi, historical monument - hanegah**

**Summary**

Fazlullah Naimi was born in the city of Astrabad. He received a good education, but a difficult life made him at one time earn money by sewing papakha. However, the love of knowledge of the world wins and he goes to wander around different countries in search of knowledge. He almost was in all the countries and large cities of the east.

He is the creator of Hurufism and his teaching Hurifism did not like the Timurids and he called Naimi an atheist and executed him. According to local residents, after the murder in 1394 of Alinjagal, the founder of Hurufism Fazlullah Naimi, murids (followers) buried him in Hanegah, now Hanegah is located in the village of Hanaga.

**Наими, Насими и святой историческтий памятник ханегах**

**Резюме**

Фазлуллах Наими родился в городе Астрабад. Он получил хорошее образование, но тяжелая жизнь заставила его зарабатывать пошивом папах. Однако стремление к познанию мира побудило его к странствию по разным странам в поисках знаний. Фазлуллах Наими побывал почти во всех странах и крупных городах Востока.

Наими является создателем Хуруфизма. Оно противоречило политике правящих в тот период Тимуридов. По этой причине Наими подвергался постоянным преследованиям. Они обвиняли его в атеизме. В итоге Наими был арестован и казнен. Основатель хуруфизма Фазлуллаха Наими был казнен в 1394 г. в Алинджагале, мюриды (последователи) похоронили его в Ханегахе, который находится в селе Ханага.

**Rəyçi: prof. R.L.Hüseynzadə**